PROFESSOR QÜDRƏT İSMAYILZADƏNİN
90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ

# QARABAĞ VƏ ZƏNGƏZURUN MƏDƏNİ İRSİ ARXEOLOJİ VƏ ETNOQRAFİK TƏDQİQATLARDA

BEYNƏLXALQ ELMİ KONFRANSIN
**TEZİSLƏRİ**

5 - 6 NOYABR 2024-CÜ İL
BAKI DÖVLƏT UNİVERSİTETİ, AZƏRBAYCAN

DEDICATED TO THE 90TH ANNIVERSARY
OF PROFESSOR GUDRAT ISMAYILZADEH

# CULTURAL HERITAGE OF KARABAKH AND ZANGEZUR IN THE ARCHAEOLOGICAL AND ETHNOGRAPHIC RESEARCHES

INTERNATIONAL SCIENTIFIC CONFERENCE
**THESES**

NOVEMBER 5-6 2024
BAKU STATE UNIVERSITY, AZERBAIJAN

AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ

# BAKI DÖVLƏT UNİVERSİTETİ

# AMEA ARXEOLOGİYA VƏ ANTROPOLOGİYA İNSTİTUTU

PROFESSOR QÜDRƏT İSMAYILZADƏNİN
90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ

# QARABAĞ VƏ ZƏNGƏZURUN MƏDƏNİ İRSİ ARXEOLOJİ VƏ ETNOQRAFİK TƏDQİQATLARDA

## BEYNƏLXALQ ELMİ KONFRANSIN TEZİSLƏRİ

5 - 6 NOYABR, 2024-CÜ İL,
BAKI DÖVLƏT UNİVERSİTETİ, AZƏRBAYCAN

DEDICATED TO THE 90TH ANNIVERSARY
OF PROFESSOR GUDRAT ISMAILZADEH

# CULTURAL HERITAGE OF KARABAKH AND ZANGEZUR IN THE ARCHAEOLOGICAL AND ETHNOGRAPHIC RESEARCHES

## INTERNATIONAL SCIENTIFIC CONFERENCE THESES

5 – 6 NOVEMBER, 2024
BAKU STATE UNIVERSITY, AZERBAIJAN

**BAKI – BAKU - 2024**

# TAĞLAR MAĞARASINDA ARXEOLOJİ TƏDQİQATLARIN BƏRPASI

**Azad Zeynalov**
*AMEA Arxeologiya və Antropologiya İnstitutu, aparıcı elmi işçi, t.ü.f.d., dosent*
azykh1960@gmail.com
**Yoşihiro *Nişiyaki***
*Tokio Universiteti Muzeyi, Tokio, Yaponiya Direktor, professor*
nishiaki@um.u-tokyo.ac.jp
**Yaqub Məmmədov**
*AMEA Arxeologiya və Antropologiya İnstitutu;*
*Xəzər Universiteti, Tarix və arxeologiya departamenti, böyük elmi işçi, t.ü.f.d.*
yaqubamea@gmail.com
**Vaqif Əsədov**
*AMEA Arxeologiya və Antropologiya İnstitutu,*
*Aparıcı elmi işçi, t.ü.f.d., dosent*
Vaqif-amea@mail.ru
**Ülviyyə Səfərova**
*AMEA Arxeologiya və Antropologiya İnstitutu; Xəzər Universiteti,*
*Tarix və arxeologiya departamenti, elmi işçi*
samkhet@mail.ru

***Açar sözlər:*** *Orta paleolit, neandertal, Tağlar mağarası, Cənubi Qafqaz.*
***Keywords:*** *The Middle Paleolithic, Neanderthal, Taghlar cave, the South Caucasus*

1960-cı ildə M.M.Hüseynov tərəfindən qeydə alınan Tağlar mağarası Quruçayın sol sahilində, Xocavənd rayonunun, Böyük Tağlar kəndi yaxınlığında, Azıx mağarasından 3 km aralıda, çayın yatağından 30 m, dəniz səviyyəsindən 650 m yüksəklikdə yerləşir. Mağaranın hündürlüyü 12 m, eni 8–11 m, uzunluğu 20 m təşkil edir. 72 $m^2$ sahə tədqiq olunmuşdur. Mağara aralarında dar keçidlər olan üç karst boşluğundan (zaldan) ibarətdir. Onların dörd girişi var.

Burada 1964-1986–cı illərdə M.M. Hüseynovun (1980-ci ildə Ə.Q. Cəfərovun) rəhbərliyi ilə aparılmış arxeoloji tədqiqatlar zamanı 8 mindən artıq daş məmulatı və 500 mindən artıq fauna qalığı aşkar olunmuşdur.

Tağlar mağarasında aparılan tədqiqatlar zamanı 6 mədəni təbəqə qeydə alınmışdır. Birinci təbəqədən orta əsrlər, tunc və eneolit dövrlərinə aid saxsı fraqmentləri aşkar olunmuşdur, digər təbəqələr isə mustye dövrünə aiddir. Mağaranın ağzı Quruçayın Alt Xvalın vyurm buzlaşmasının II yarısı terrası sə-

viyyəsində, 24–30 m hündürlüyündə olduğu müəyyən olunmuşdur. I təbəqə son holosen, II təbəqə III vyurma, III–VI təbəqələr alt–orta vyurma aid olunur. N.Ş.Şirinova görə Tağlar mağarasının formalaşması alt Xvalında başa çatmışdır və bu zamandan etibarən insanlar tərəfindən istifadə olunmağa başlanmışdır. Daha sonra aparılmış tədqiqatlar əsasında mağaranın formalaşmasının Üst Xəzərdə başa çatması qənaətinə gəlinmişdir.

Məlum olduğu kimi 30 ildən artıq bir müddətdə Qarabağ bölgəsi o cümlədən, Tağlar mağarası Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. İşğal dövründə Azıx mağarası ilə bərabər Tağlar mağarasında qeyri-qanuni "qazıntılar" aparılmışdır. Sevindirici haldır ki, əldə olunmuş materialların böyük hissəsi Xocavənd rayonu ərazisi işğaldan azad olunduqdan sonra qəhrəman hərbçilərimiz tərəfindən aşkar olunmuşdur və AMEA Arxeologiya və Antropologiya İnstitutu tərəfindən gətirilərək İnstitutun Fonduna təqdim olunmuşdur. Qeyd olunan materialların gələcəkdə tədqiqatlara cəlb olunması nəzərdə tutulub.

Uzun fasilədən sonra AMEA Arxeologiya və Antropologiya İnstitutu və Tokio Universiteti Muzeyi arasında əldə olunmuş razılaşmaya görə Tağlar mağarasında yenidən tədqiqatlar başlanmışdır. Tədqiqatlarda Azad Zeynalovun rəhbərliyi ilə Azərbaycan arxeoloqları və prof. Yoşihiro Nişiyakinin rəhbərliyi ilə yapon arxeoloqları iştirak etmişdir.

İşğal dövründə nəzarətsiz və mühafizəsiz qalmış abidənin bir divarı uçmuşdur. Bu il ilkin olaraq həmin 7 m uzunluğunda, 5 m hündürlüyündə şərq divar tamamilə təmizlənmişdir və stratiqrafiyası müəyyən olunmuşdur. Tədqiqatlar nəticəsində 35 mindən artıq fauna qalığı, mindən artıq daş artefakt aşkar olunmuşdur. Xammal kimi əsasən çaxmaqdaşından istifadə olunmuşdur.

Məlum olduğu kimi, mağarada insanların yaşaması dövrü ilə bağlı bütün tarixlər arxeoloji materialların texnoloji-tipoloji təhlilləri əsasında nisbi yaş kimi müəyyən olunmuşdur. Hazır ki tədqiqatlarda isə bunun üçün daha müasir texniki üsul olan OSL-dən istifadə olunmuşdur. Bu bizə daha dəqiq və mütləq xronologiyanı müəyyənləşdirməyə imkan verəcək.

Tədqiqatların növbəti dörd ildə də davam etdirilməsi və gələcəkdə nəticələrin elmi ictimaiyyətə çatdırılması üçün monoqrafiya və məqalələrin nəşri nəzərdə tutulub.

# MÜNDƏRİCAT/CONTENT

**İbrahim Zeynalov**
Qarabağ və Zəngəzurun mədəni irsi
professor Qüdrət İsmayılzadənin tədqiqatlarında ........................................ 5
**Fərhad Quliyev**
Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad olunmuş ərazilərində
aparılan arxeoloji tədqiqatların ilkin nəticələri ........................................ 7
**Tarix Dostiyev**
Qarabağın arxeoloji irsində mədəni qatlar........................................ 9
**Yoshihiro Nishiaki, Azad Zeynalov,**
**Yagub Mammadov, Ulviyya Safarova**
Resumption of the excavations of the middle paleolithic
Taghlar cave, Karabakh ........................................ 11
**David Stone**
The archaeobotany of Qaratepe, Azerbaijan 2nd–13th centuries................ 13

## I BÖLMƏ/SECTION 1
## QARABAĞ VƏ ZƏNGƏZURUN DAŞ VƏ PALEOMETAL DÖVRLƏRİNİN ARXEOLOJİ İRSİ

## ARCHAEOLOGICAL HERITAGE OF THE STONE AND PALEOMETAL PERIODS OF KARABAKH AND ZANGEZUR

**Yaqub Mammadov**
What types of humans lived in Azykh cave? ........................................ 14
**Azad Zeynalov, Yoşihiro Nişiyaki, Yaqub Məmmədov,**
**Vaqif Əsədov, Ülviyyə Səfərova**
Tağlar mağarasında arxeoloji tədqiqatların bərpası ........................................ 16
**Sahib Mammadov, Aybaniz Ahadova, Ahmad Ahadov**
Mineral composition of ancient ceramics from Fuzuli district .................. 18
**Karolina Hruby, Mark Iserlis, Khagani Almamedov**
Late chalcolithic ground stone tools in context: preliminary results ........ 20
**Müzəffər Hüseynov, Bəxtiyar Cəlilov, Giulio Palumbi**
Qaraçinar yaşayış yerində arxeoloji tədqiqatlar haqqında........................... 22
**Fuad Hüseynov**
Azərbaycanın Qarabağ bölgəsinin erkən əkinçilik dövrü abidələri........... 24
**Дмитрий Кириченко**
Модель колеса Кура-Араксской Культурно-Исторической
Общности. Из историко-краеведческого музея г. Барда......................... 26
**Aidə Məmmədova**
Naxçıvan dulus ustalarının Quruçay və Köndələnçay vadisi ilə
iqtisadi-mədəni əlaqələri ........................................ 28

Kompüter tərtibatı: Azadə İmanova
Üz qabığının dizaynı: Sahib Adilov

Çapa imzalanıb: 04.11.2024
Format: 70x100 $^{1}/_{16}$. Ofset kağızı.
Həcmi: 8,5 ç.v. Sayı 50

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.
AZ 1148, Bakı şəh., ak. Z.Xəlilov küç. 33
Tel: (+99 412) 538 87 39 / 538 50 16
E-mail: bdunesheevi@bsu.edu.az
**www.bsu.edu.az**

bsu.edu.az
(+994 12) 430 32 45
info@bsu.edu.az
Ünvan: Bakı şəhəri, AZ 1148,
ak.Zahid Xəlilov küç., 33